

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 146 (21.298)

*29 iyul 2015-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Naxçıvan Muxtar Respublikası Prokurorluğunda dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında qarşıya qoyulmuş vəzifələr və 2015-ci ilin birinci yarımili ərzində cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində prokurorluq orqanları tərəfindən görülmüş işlərə dair kollegiya iclası keçirilib.***

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev geniş məruzə ilə çıxış edib. Qeyd olunub ki, 2015-ci ilin birinci yarımilində digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə həyata keçirilən quruculuq işlərinin əsas təminatlarından biri olan ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, dövlət müstəqilliyimizin, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin edilməsində fəallıq göstəriblər.

Səbuhi Şahverdiyev kollegiya iştirakçılarının diqqətinə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və tabe rayon (şəhər) prokurorluqlarının iş planlarında “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununda və qüvvədə olan qanunvericilik aktlarında müəyyən edilmiş vəzifə və səlahiyyət hüdudlarından kənara çıxan, özündə keçmiş prokurorluğun funksiyalarına aid elementləri daşıyan tədbirlər və eləcə də prokurorluğun səlahiyyətlərinə aid olmayan məsələlər daxil edilməyib. Muxtar respublika Prokurorluğu orqanlarının iş planlarında nəzərdə tutulmuş bütün məsələlər vaxtında və keyfiyyətli icra olunub.

“Vətəndaşların müraciətlərinə baxılması sahəsində hesabat dövründə müəyyən işlər görülüb”, – deyən prokuror bildirib ki, muxtar respublikanın prokurorluq orqanlarına vətəndaşlardan 8 ərizə, şikayət və digər müraciətlər daxil olmuşdur ki, onların hamısı müvafiq qanunvericiliyə uyğun həll edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət olunması məqsədilə 2015-ci ilin birinci yarımilində prokurorluğun mərkəzi aparatının və tabe rayon (şəhər) prokurorluqlarının əməliyyat işçiləri bu işə cəlb edilib və hazırda digər müvafiq orqanlarla əlaqəli şəkildə bu sahədə tədbirlər mütəmadi olaraq davam etdirilir. Həmçinin bu sahədə hüquqi maarifləndirmə işi aparılmaqla, kütləvi informasiya vasitələrinin gücündən səmərəli istifadə olunmağa çalışılır.

Hesabat dövründə prokurorluq əməkdaşları tərəfindən yerlərdə əhali ilə görüşlər keçirilib, əhalinin hüquqi maarifləndirilməsi və hüquqi biliklərin təbliği ilə əlaqədar profilaktik tədbirlər davam etdirilib. Səbuhi Şahverdiyev vurğulayıb ki, hüquqi-təminat və informasiya şöbəsi, eləcə də prokurorluq əməkdaşları görülmüş işlərlə kifayətlənməməli, “Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında” əmrinin tələblərindən irəli gələn vəzifələrin icrası üçün qanunvericiliyin izahı məqsədilə bütün vasitələrdən geniş istifadə etməlidirlər.

Sonra məruzə ətrafında çıxışlar olub.

*2015-ci ilin birinci yarımilinin yekunu və qarşıda duran vəzifələrlə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində keçirilən kollegiya iclasını xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Fazil Ələkbərov açaraq məruzə edib.*



Məruzəçi bildirib ki, bu ilin birinci yarısında Dövlət Miqrasiya Xidməti üçün ən əlamətdar hadisə may ayının 27-də qurum üçün yeni, hər cür şəraitlə təmin olunmuş binanın istifadəyə verilməsi olub. Xidmətə dövlətimiz tərəfindən göstərilən böyük diqqət və qayğının nümunəsi olan bu binada yaradılan yüksək səviyyəli iş şəraiti əməkdaşların məhsuldar fəaliyyəti üçün geniş imkanlar açıb. Yeniliklərdən biri də qurumun “Naxtel” Şirkətinin toplu SMS xidmətindən istifadəyə başlamasıdır. Belə ki, artıq Dövlət Miqrasiya Xidmətinə müraciət edən hər bir əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin, eyni zamanda Azərbaycan Respublikası vətəndaşlarının elektron müraciətlərinə uyğun cavablandırma onların mobil telefonlarına ünvanlandırılır. Daha bir yenilik isə 202 nömrəli Miqrasiya Məlumat Mərkəzinin – “Qaynar xətt”in fəaliyyətə başlamasıdır.

Qeyd edilib ki, bu ilin fevral ayından etibarən Naxçıvan şəhərinin ictimai yerlərində monitorlar quraşdırılıb və miqrasiya sahəsində məlumatlandırma funksiyası daşıyan videoçarxların nümayiş etdirilməsinə start verilib. Bu dövr ərzində xidmət tərəfindən əmək miqrasiyası sahəsində maarifləndirici tədbirlərə geniş yer verilib. Ümumiyyətlə, 2015-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz əmək miqrasiyasının qarşısının alınması və iş icazələrinin qüvvədə olma qaydalarına nəzarət etmək məqsədilə muxtar respublika ərazisində fəaliyyət göstərən tikinti və emal sənayesi sahələrində yoxlamalar keçirilib. Əldə olunan nəticələrə əsasən, 2015-ci ilin birinci yarımili ərzində muxtar respublika ərazisində qanunsuz və qeydiyyatsız olan, qanunsuz yaşayan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 137 əcnəbi aşkarlanıb. Aşkarlanmış əcnəbilərdən 19-u barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən cərimə inzibati tənbeh növü tətbiq edilib, 110 nəfər 48 saat müddətində, 8 əcnəbi isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılıb. Bu dövr ərzində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı xidmətə, ümumilikdə, 5621 müraciət daxil olub.

Qeyd edilib ki, bəhs olunan dövrdə konkret sahələr üzrə elektron xidmətlərin göstərilməsi məqsədilə yaradılan Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin elektron poçtuna, ümumilikdə, 1542 müraciət daxil olub. Bu dövrdə Dövlət Miqrasiya Xidməti tərəfindən dövlət büdcəsinə, ümumilikdə, 89 min 350 manat məbləğində vəsait köçürülüb.

Sonra məruzə ətrafında çıxışlar olub, xidmətin 6 aylıq fəaliyyəti ətraflı təhlil edilib, ötən ilin müfaviq dövrünün göstəriciləri ilə müqayisələr aparılıb, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Fazil Ələkbərov yekun vurub.

* * *

***İyul ayının 28-də Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında 2015-ci ilin birinci yarımilinin yekunlarına həsr olunmuş yığıncaq keçirilmişdir. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova 2015-ci ilin birinci yarısında Ombudsman təsisatının fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış etmişdir.***



Qeyd edilmişdir ki, 2015-ci ilin birinci yarısında da Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili fəaliyyətini, əsasən, insan hüquqlarının müdafiəsi və pozulmasının qarşısının alınması, daxil olan müraciətlərin araşdırılması və müvafiq tədbirlərin görülməsi, elmi-analitik fəaliyyətin, əhalinin müxtəlif sosial qruplarına ünvanlanan və insan hüquqlarının müxtəlif istiqamətlərini əks etdirən hüquqi maarifləndirici tədbirlərin həyata keçirilməsi, dövlət və yerli özünüidarəetmə orqanları ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində qurmuşdur.

Bildirilmişdir ki, cari ilin birinci yarısında insan hüquqlarının müdafiəsi və pozulmuş hüquqların bərpası daim diqqət mərkəzində saxlanılmış, Müvəkkilə ünvanlanmış hər bir müraciət araşdırılmış, aid qurumlara sorğular göndərilmiş, şifahi qəbul zamanı ərizəçilərə çoxsaylı hüquqi məsləhətlər verilmişdir. Vətəndaşlar tərəfindən müxtəlif formada daxil olmuş müraciətlərə, həmçinin elektron müraciətlərə qanunla müəyyən edilən müddətlərdə baxılmış, daxil olan bütün müraciətlər araşdırılmışdır.

Vurğulanmışdır ki, Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən biri insan hüquq və azadlıqlarının təbliği, hüquqi maarifləndirmə işinin təşkil edilməsidir. 2015-ci ilin ilk altı ayı ərzində Müvəkkil təsisatı tərəfindən, ümumilikdə, müxtəlif sosial qruplara ünvanlanmış 60 tədbir keçirilmişdir.

Müvəkkilin preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu Naxçıvan Muxtar Respublikası Daxili İşlər, Ədliyyə, Səhiyyə, Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə aid 26 müəssisədə bəhs olunan dövrdə, ümumilikdə, cəmi 51 başçəkmə həyata keçirilmişdir.

Müvəkkilin rəsmi internet səhifəsində informasiyaların mütəmadi olaraq yenilənməsini, qanunvericilik bazasının zənginləşdirilməsini, Naxçıvan Muxtar Respublikasında insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlərin, o cümlədən müvəkkilin və təsisatın fəaliyyətinin işıqlandırılmasını, elektron müraciət səhifəsinin fəaliyyətinin daim diqqət mərkəzində saxlanılmasını vurğulayan Ülkər Bayramova qarşıda duran vəzifələrdən də danışaraq qeyd etmişdir ki, təsisat bundan sonra da insan hüquqlarının müdafiəsinin səmərəli həyata keçirilməsi məqsədilə dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlıq nəticəsində əldə edilən müsbət təcrübə daha da inkişaf etdirilməli və mütəmadi təkmilləşdirilməlidir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində keçirilən tədbiri xidmətin rəisi, general-mayor Səxavət Salmanov açaraq məruzə ilə çıxış edib.***



Bildirilib ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti cari ilin ilk 6 ayında qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlib. Belə ki, qeyd olunan dövrdə çağırışçıların həqiqi hərbi xidmətə çağırılması haqqında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamları əsasında çağırış kampaniyalarının keçirilməsi üçün nəzərdə tutulmuş plan-tapşırıqlar xidmət tərəfindən tam həcmdə yerinə yetirilib. Qeyd olunan dövrdə xidmətin idarə və şöbələri tərəfindən hərbi hissələrin, eləcə də qanunla müəyyən edilmiş digər silahlı birləşmələrin müddətdən artıq hərbi qulluqçular və zabitlərlə komplektləşdirilməsi işi davam etdirilib, 145 hərbi vəzifəlinin sənədləri hazırlanaraq hərbi hissələrə göndərilib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Təhsil, Gənclər və İdman nazirliklərinin birgə planı əsasında gənclərdə vətənpərvərlik hissinin artırılması ilə bağlı onların hərbi hissələrə ekskursiyaları təşkil edilib, gənclər hərbi hissələrin maddi-texniki bazası, texnikalarla, müxtəlif təyinatlı silahlarla, əsgər yataqxanaları ilə yaxından tanış olublar. Belə tədbirlərin ilin ikinci yarısında da davam etdirilməsi nəzərdə tutulub.

Səxavət Salmanov işdə buraxılmış nöqsanlara da toxunub, onların qısa müddətdə aradan qaldırılmasının vacibliyini bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Aparatında Səfərbərlik hazırlığı, səfərbərlik və ehtiyatda olan şəxsi heyətin qeydiyyatı idarəsinin rəisi, polkovnik-leytenant Ziyaəddin Baxşəliyevin, xidmətin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik Elxan Əliyevin, Ordubad Rayon Şöbəsinin rəisi, mayor Vüqar Rəhimlinin, Kəngərli Rayon Şöbəsinin rəisi, mayor Həsən Məmmədovun çıxışları olub.

Tədbirə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov yekun vurub.

**Xəbərlər şöbəsi**

# Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində keçirilən kollegiya iclasında Təhsil naziri Piri Nağıyev geniş məruzə ilə çıxış edərək bildirib ki, hər il olduğu kimi, bu il də muxtar respublikamızda məktəb binalarının tikintisi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi diqqət mərkəzində saxlanılıb. Belə ki, 2015-ci ilin birinci yarısında Şərur rayonunda Kürkənd, Cəlilkənd, Babək rayonunda Qoşadizə, Ordubad şəhər 3 nömrəli tam orta məktəbləri üçün binalar şagird və müəllimlərin, Kəngərli Rayon Təhsil Şöbəsi üçün inzibati bina isə təhsil işçilərinin istifadəsinə verilib.*

Ötən müddət ərzində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkili diqqətdə saxlanılıb, Heydər Əliyev Muzeyi, Naxçıvan Dövlət Tarix və Naxçıvan Dövlət Xalça muzeyləri və daha 9 muzey ilə ümumtəhsil məktəbləri arasında canlı bağlantılar yaradılıb.

Təhsil naziri qeyd edib ki, bəhs olunan dövrdə müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, əlavə təlim ehtiyaclarının müəyyənləşdirilməsi, onların fəaliyyətinin stimullaşdırılması və əməyinin qiymətləndirilməsinin təmin olunması məqsədilə 1-18 mart 2015-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində çalışan müəllimlərin attestasiyası keçirilib.

Məruzədə diqqətə çatdırılıb ki, 21 fevral 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə təhsil işçilərinin də üzərinə mühüm vəzifələr qoyulub. Həmin vəzifələrdən irəli gələn məsələlərin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən tədbirlər planı hazırlanıb. Tədbirlər planına uyğun olaraq, aidiyyəti təşkilatlar tərəfindən muxtar respublikanın bütün şəhər və rayonlarında idmanın, xüsusən də şahmatın inkişafı ilə əlaqədar tədbirlər keçirilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 aprel 2015-ci il tarixli Sərəncamı ilə Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılıb. 2015-2016-cı tədris ilindən fəaliyyətə başlayacaq liseyə keçirilən qəbul imtahanlarının nəticələrinə əsasən 160 şagird müvafiq siniflərə qəbul olunub. Nazirlik tərəfindən 9 iyun 2015-ci il tarixdə liseydə pedaqoji fəaliyyət göstərmək üçün müxtəlif ixtisaslar üzrə sənəd təqdim etmiş müəllimlərin imtahanı keçirilib.

2015-ci ildə məktəbi bitirən 3331 nəfərdən 2638-i, yəni məzunların 79,19 faizi ali məktəblərə qəbul üçün sənəd təqdim edib. Məzunlardan 161-i xüsusi təyinatlı ali təhsil müəssisələrinə, IX sinfi bitirənlərdən 916-sı orta ixtisas məktəblərinə, 977 şagird isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün sənəd verib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

*İyulun 28-də Naxçıvan Şəhər İcra Hakimiyyətində 2015-ci ilin birinci yarısının yekunlarına və dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında qarşıya qoyulan vəzifələrin icrasına həsr olunmuş yığıncaq keçirilib.*



Yığıncağı giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açıb. İcra Hakimiyyəti başçısının müavini Səyahət İmanov məruzə ilə çıxış edib.

Bildirilib ki, ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmizin regionlarında bütün sahələrdə inkişafa nail olunur. Naxçıvan Muxtar Respublikası da Ali Məclisin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə son 20 ildə iqtisadiyyatın, sosial-mədəni həyatın bütün sahələrində yüksək nailiyyətlər əldə edib, özünün dinamik inkişaf mərhələsinə çatıb.

Qeyd olunub ki, əvvəlki illərdə olduğu kimi, 2015-ci ilin ilk yarımilində də Naxçıvan şəhərinin ictimai və təsərrüfat həyatında abadlıq-quruculuq işlərinin geniş vüsət alması sosial-iqtisadi sahədə əldə olunan uğurlara stimul verib. Bəhs olunan dövrdə Naxçıvan şəhərində abadlıq, bərpa, tikinti-quraşdırma işləri ön plana çəkilərək müxtəlif istiqamətli obyektlərin tikintisi və yenidən qurulması, İslam Səfərli, Nizami küçələrində asfalt-beton örtüyünün salınması başa çatdırılıb. Hazırda bir neçə obyektdə və Naxçıvan şəhərinin küçələrində tikinti və yenidənqurma işləri davam etdirilir. Ötən dövr ərzində iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 370 milyon 677 min 900 manat investisiya qoyulub.

Nəzərə çatdırılıb ki, Naxçıvan şəhərinin keyfiyyətli içməli su ilə təmin edilməsi, kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində bir sıra işlər görülüb. 224,8 kilometr məsafədə su, 218,9 kilometr məsafədə kanalizasiya xətləri çəkilib, 21 min 134 sayğac quraşdırılıb.

Sahibkarlığın dəstəklənməsi, yeni istehsal sahələrinin yaradılması İcra Hakimiyyətinin diqqətdə saxladığı sahələrdən biri olub. 2015-ci ilin yanvar-iyun aylarında 360 milyon 331 min 400 manatlıq sənaye məhsulu istehsal edilib ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur.

Səyahət İmanov bildirib ki, bu ilin 6 ayı ərzində işsiz kimi qeydə alınmış 391 nəfərdən 291-i işlə təmin edilib. Həmçinin 30 nəfər ictimai işə cəlb olunub, 2 nəfər kvota yerlərinə göndərilib, 52 nəfər peşə hazırlığı kursları keçib.

Məruzə ətrafında Naxçıvan Şəhər Maliyyə Şöbəsinin müdiri Aqil Nəsirovun, Naxçıvan Şəhər Statistika İdarəsinin rəisi Vahid Həsənovun çıxışları dinlənilib.

Yığıncağa Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov yekun vurub.

* * *

*Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində 2015-ci ilin birinci yarısının yekunlarına dair kollegiya iclası keçirilmişdir. İclasda dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasının qarşıya qoyduğu vəzifələr və cari ilin ilk 6 ayının nəticələri müzakirə olunmuşdur.*



Kollegiya iclasını Nəqliyyat naziri Mirsənani Seyidov açaraq qeyd etmişdir ki, cari ilin birinci yarısında 118 nəfər fiziki və hüquqi şəxs lisenziyaya cəlb edilmiş, 248 avtonəqliyyat vasitəsinə lisenziya kartı və 977 avtonəqliyyat vasitəsinə "İcazə blankı" verilmişdir. Lisenziya almış avtomaşınların texniki müayinəsindən əldə olunmuş 31 min 839 manat vəsait nazirliyin xüsusi hesabına, lisenziya haqqı olaraq toplanmış 17 min 700 manat vəsait isə büdcəyə köçürülmüşdür.

Sərnişinlərin rahatlığını təmin etmək üçün marşrut şəbəkəsinin genişləndirilməsi diqqət mərkəzində saxlanılmış, 2015-ci ilin ilk 6 ayı ərzində Ordubad rayonunun Bist, Ələhi, Xurs və Nürgüt kəndlərinə yeni marşrutlar açılmışdır. Eyni zamanda sərnişindaşıma xidmətinin səviyyəsinin yüksəldilməsi üçün Naxçıvan Şəhər Nəqliyyat İdarəsi tərəfindən alınmış 5 ədəd taksi sərnişinlərin istifadəsinə verilmişdir.

Nəqliyyat naziri bildirmişdir ki, Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində bir sıra işlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin xidmət etdiyi respublika və yerli əhəmiyyətli yollarda istismar, təmir, tikinti və yenidənqurma işləri aparılmışdır. Həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini vermiş, 274 kilometr dövlət əhəmiyyətli, 1199 kilometr yerli əhəmiyyətli avtomobil yollarında hərəkətin intensivliyinin təmin olunmasına əlverişli şərait yaradılmışdır. Hazırda istər magistral, istərsə də rayon mərkəzlərini ucqar dağ kəndləri ilə birləşdirən yerli əhəmiyyətli yollarda cari təmir işləri aparılır.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi tərəfindən cari ilin 6 ayında 37 min 642 ton yük daşınmışdır.

Sonra "Naxçıvan Dəmir Yolları" MMC-nin direktoru Mahir Əliyevin, Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin baş direktoru Bəhruz Əsgərovun, Naxçıvan Beynəlxalq Hava Limanının direktor müavini Ceyhun Zeynalovun çıxışları olmuşdur.

İclasa Naxçıvan Muxtar Respublikasının Nəqliyyat naziri Mirsənani Seyidov yekun vurmuşdur.

* * *

*Şahbuz rayonunun sosial-iqtisadi inkişafının yekunlarına və dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasından irəli gələn vəzifələrə həsr olunmuş müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev açaraq məruzə etmişdir.*



Bildirilmişdir ki, 2015-ci ilin ötən dövründə rayonun ayrı-ayrı yaşayış məntəqələrində abadlıq-quruculuq və tikinti işlərinin aparılmasına diqqət artırılmış, Şahbuz rayonunda bir sıra obyektlər istifadəyə verilmişdir. Hazırda rayonun Daylaqlı kəndində 120 şagird yerlik tam orta məktəb binasının və kənd mərkəzinin tikintisi aparılır.

Vurğulanmışdır ki, respublikamızda "Kənd təsərrüfatı ili" elan edilmiş 2015-ci ildə aqrar sahənin inkişafı məqsədilə şəxsi mülkiyyətdə olan torpaqlardan səmərəli istifadə edilməsinə göstərilən dövlət qayğısı sayəsində bu sahəyə maraq xeyli artmış, cari ilin məhsulu üçün ötən il 1344 hektar sahədə taxıl əkini aparılmışdır. Həmçinin bu il 430 hektar sahədə kartof, 281 hektar sahədə tərəvəz, 242 hektar sahədə dənli-paxlalı, 10 hektar sahədə bostan bitkiləri əkilmişdir.

Vurğulanmışdır ki, Şahbuz şəhərində, eləcə də ayrı-ayrı kəndlərdə yolların genişləndirilməsi ilə əlaqədar bir çox yerlərdə təbii qaz xətləri yenidən işlənmiş, yeni tikilmiş 22 evə təbii qaz xətti çəkilmişdir. Bəhs olunan dövrdə 5 milyon 465 min 688 kubmetr təbii qaz sərf olunmuş, təşkilatlardan və əhalidən işlədilən mavi qazın dəyərinin tam şəkildə yığılması təmin edilmişdir.

Rayon əhalisinə göstərilən səhiyyə, mədəniyyət, rabitə və digər sosial xidmətlərin səviyyəsi əvvəlki illərə nisbətən xeyli yaxşılaşdırılmış, şəhid ailələrinin, Azərbaycan Vətən Müharibəsi əlillərinin, qaçqın və məcburi köçkünlərin problemlərinin vaxtında həll olunmasına diqqət yetirilmiş, hərbi xidmət vəzifəsini yerinə yetirərkən sağlamlığını itirmiş I qrup əlilə "NAZ-Lifan" markalı minik avtomobili verilmişdir.

Bəhs olunan dövrdə Şahbuz şəhərində yerləşən Ahıllar evində yaşayan sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün lazımi şərait yaradılmış, həmçinin imeciliklər zamanı ayrı-ayrı kənd yaşayış məntəqələrində ahıl və kimsəsiz vətəndaşların ev və həyətlərində təmizlik işləri aparılmış, səliqə-sahman yaradılmasına köməklik göstərilmişdir.

Sonda məruzə ətrafında çıxışlar olmuşdur.

**Xəbərlər şöbəsi**

* * *

Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə çıxış edən rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, 2015-ci ilin birinci yarımili Naxçıvan Dövlət Universiteti üçün də əlamətdar olub. Universitetin maddi-texniki bazası gücləndirilib, universitet xəstəxanasının və Baytarlıq təbabəti ixtisasının yeni binaları istifadəyə verilib.



Qeyd olunub ki, 5000-dən artıq tələbənin təhsil aldığı bu ali məktəb fəaliyyətini günün tələbləri səviyyəsində qurmaq üçün ölkədə aparılan təhsil islahatlarından faydalanır. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə birgə həyata keçirilən "Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsinin tamamlanması, bütövlükdə, Azərbaycan ali təhsil tarixində əlamətdar hadisədir. Ümumi dəyəri 3,5 milyon ABŞ dolları olan layihə idarəçilik işlərində səmərəliliyin artırılması, onlayn təhsil xidmətinin göstərilməsi, elektron təhsil şəbəkəsinin, rəqəmsal multimedia infrastrukturunun təkmilləşdirilməsi ilə fərqlənir. Həmçinin Naxçıvan Dövlət Universitetinin geniş internet məkanına çevrilməsi, "Elektron universitet" layihəsinin uğurla gerçəkləşdirilməsi, imtahanların elektron test üsulu ilə təşkili də qazanılan nailiyyətlərdəndir.

"Elektron Naxçıvan-10: təhsil prosesinin təkmilləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının rolu", "Naxçıvan və Şərqi Anadolu abidələri", "Kənd təsərrüfatının inkişafı: reallıqlar və perspektivlər" kimi beynəlxalq elmi konfransların keçirildiyini diqqətə çatdıran rektor belə tədbirlərin elmi nailiyyətlərin artırılmasında, beynəlxalq əməkdaşlığın genişləndirilməsində mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Saleh Məhərrəmov dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında muxtar respublikada yüksəkixtisaslı kadr hazırlığı, tədrisin müasir standartlar səviyyəsində qurulması, yeni texnologiyalardan və müasir təlim üsullarından istifadə etməklə tədrisdə keyfiyyət dəyişikliklərinə nail olunması istiqamətində ali təhsil müəssisələri qarşısında mühüm vəzifələr qoyulduğunu diqqətə çatdırıb.

Yığıncaqda həmin vəzifələrin icrası istiqamətində görüləcək işlər barədə çıxışlar olub.

**Mehriban SULTAN**

# Sahibkarlığın inkişafı üçün verilən kreditlər məhsul bolluğu yaradılmasında başlıca amildir

***Muxtar respublikada əhalinin ərzaq təhlükəsizliyini təmin etmək, kənd əhalisini işgüzar münasibətlərə cəlb etməklə onların məşğulluğuna nail olmaq və sahibkarlıq fəaliyyəti üçün zəruri ictimai-iqtisadi mühiti formalaşdırmaq həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biridir.***

Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi və yerli istehsalın həcminin artırılmasında təsərrüfatdaxili ehtiyatlardan və imkanlardan səmərəli istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan muxtar respublikada ərzaq bazarının formalaşmasında bir sıra iqtisadi metodlardan istifadə olunur. Xüsusilə son illər əhali, fermer və sahibkarların mövcud resurslardan səmərəli şəkildə istifadəsinə şərait yaratmaq və onları maliyyə resursları ilə təmin etmək diqqət mərkəzində saxlanılır. Vətəndaşların əlverişli maliyyə resursları ilə təmin edilməsi müxtəlif istehsal və xidmət sahələrinin təşkilinə, onların inkişafına, bu sahələrdə fəaliyyətin genişləndirilməsinə, əhali tələbatlarının daxili bazar hesabına ödənilməsinə şərait yaradır. Tələbatın, başlıca olaraq, daxili istehsal hesabına ödənilməsinin ərzaq bazarının tənzimlənməsində iki mühüm əhəmiyyəti var. Bunlardan birincisi muxtar respublikanın ərzaq məhsulları üzrə idxal asılılığını azaltmaqla onun iqtisadi müstəqilliyini daha möhkəm təməllər üzərində qurmasına dəstək olur. İkincisi isə yerli istehsalın inkişafı nəqliyyata çəkiləcək xərcləri minimuma endirməklə istehsal olunmuş məhsulun maya dəyərinin daha aşağı olmasına və əhalinin təzə, yüksəkkeyfiyyətli ərzaq məhsullarına olan tələbatını ödəməyə imkan verir.

Bu gün muxtar respublikamızda da ərzaq təhlükəsizliyi məsələsi ən mühüm həyat təminatı sistemlərindən biri kimi aktuallıq kəsb edir. Bu səbəbdən də "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" bu istiqamətdə lazımi hədəflərə çatmaqda böyük əhəmiyyətə malikdir.

Proqramlarda muxtar respublikada fəaliyyət göstərən banklar və bank olmayan digər kredit təşkilatları tərəfindən də bir sıra tədbirlərin icrası nəzərdə tutulmuşdur. Hazırda muxtar respublika iqtisadiyyatının kreditləşdirilməsi kreditlərin verildiyi sahələrdə məhsul istehsalının artımına, istehsal olunmuş məhsulların ixracına, məşğulluğun gücləndirilməsinə, ümumilikdə, iqtisadiyyatın bütün sahələrinin inkişafına birbaşa və dolayı yolla təsir edir.

Son beş il ərzində muxtar respublika iqtisadiyyatına yönləndirilmiş kredit resurslarının həcmində müşahidə olunan artımlar bu sahədə istehsal edilən məhsul həcminin də artımına səbəb olmuşdur. Əgər 2010-cu ilin yanvar-iyun aylarında muxtar respublika iqtisadiyyatının inkişafı məqsədilə cəlb edilmiş kredit resurslarının həcmi 18 milyon 77 min manat təşkil edirdisə, bu göstərici beş il ərzində 3 dəfəyədək artmış və 2015-ci ilin yanvar-iyun aylarında 41 milyon 355 min manat təşkil etmişdir.Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 milyon 730 min manat və ya 1,5 dəfəyədək artımla müşahidə olunmuşdur. Bu müddət ərzində verilmiş kreditlər, əsasən, sənaye, tikinti, ticarət, nəqliyyat, daşınmaz əmlakla əlaqədar ipoteka kreditləri, digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi üçün istehlak kreditləri və kənd təsərrüfatı kreditlərini əhatə etmişdir ki, kənd təsərrüfatının inkişafı üçün cəlb edilmiş kreditlər daha diqqətçəkən olmuşdur. Belə ki, son beş il ərzində kənd təsərrüfatı ilə məşğul olan əhaliyə, fermerlərə, sahibkarlara verilmiş kreditlərin həcmi 5 milyon 375 min manat artmış, 2015-ci ilin ilk altı ayında 10 milyon 661 min manat təşkil etmişdir. Bu göstəricinin bəhs edilən dövr ərzində verilmiş kreditlərin ümumi həcmindəki payı 26 faiz olmuşdur və eyni zamanda ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 257 min manat artım təşkil etmişdir. Kreditlərin həcmində artım tempinə görə heyvandarlıq sahəsi daha yüksək göstəriciyə malik olmuşdur. Cari ilin yanvar-iyun aylarında bu sahənin inkişafı üçün muxtar respublikada fəaliyyət göstərən banklar və bank olmayan digər kredit təşkilatları tərəfindən 8 milyon 314 min manat həcmində kredit verilmişdir. Bu isə o deməkdir ki, son beş il ərzində bu istiqamətdə ayrılan kreditin həcmi 3 dəfədən çox artmışdır. Ötən ilin müvafiq dövründə isə həmin göstərici 5 milyon 855 min manat təşkil etmişdir.

2015-ci ilin birinci yarımilində bitkiçiliyin inkişafına 1 milyon 513 min manat, o cümlədən kartofçuluğa 150 min manat, bostan-tərəvəz bitkilərinin yetişdirilməsinə 916 min manat, istixana təsərrüfatının inkişafına 324 min manat, soğan əkini üçün 49 min manat, qarğıdalı əkini üçün 37 min manat, taxılçılıq üçün isə 31 min manat maliyyə resursu cəlb edilmişdir. Meyvəçilik və bağçılığın inkişaf etdirilməsi üçün cari ilin ilk altı ayında 22 min manat, arıçılığın inkişafı üçün isə 290 min manat kredit verilmişdir. Ötən dövrdə quşçuluğun inkişafına da diqqət artırılmış, bu ilin yanvar-iyun ayları ərzində bu sahəyə ayrılan kreditin həcmi 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 477 min manat çox – 523 min manat təşkil etmişdir.

*Ümumiyyətlə, son beş ilin yanvar-iyun ayları ərzində iqtisadiyyatın kreditləşdirilməsi məhz 2015-ci ildə ən yüksək göstəriciyə malik olmuşdur. Kreditləşmənin daim artan tempdə olması isə dövlət proqramlarının icrasının bank sektoru tərəfindən uğurla həyata keçirildiyinin göstəricisidir.*

**Elçin ƏLİYEV**
***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi***

***Muxtar respublikamızda daxili bazarın qorunması, istehlakçıların hüquqlarının müdafiəsi, antiinflyasiya tədbirlərinin gücləndirilməsi, süni qiymət artımının qarşısının alınması, yerli istehsal və idxal olunan malların keyfiyyətinə nəzarətin həyata keçirilməsi, istehlak müddəti bitmiş, keyfiyyətsiz malların ticarət dövriyyəsindən çıxarılması mühüm vəzifə kimi qarşıya qoyulmuş məsələlərdəndir.***

# Daxili bazarın qorunmasına və satışı həyata keçirilən məhsulların keyfiyyətinə ciddi nəzarət olunur

Bu istiqamətdə həyata keçirilən tədbirlər istehlakçıların hüquqlarının qorunmasına, əhalinin tələbatının daha keyfiyyətli məhsullarla ödənilməsinə hərtərəfli şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən də istehlakçıların hüquqlarının müdafiəsi daim diqqət mərkəzində saxlanılır. İstehlakçıların hüquqlarının qorunması, daxili bazara nəzarət və keyfiyyətin yüksəldilməsi üçün 2015-ci ilin 6 ayı ərzində 338 halda topdan və pərakəndə ticarət, istehsal müəssisəsi və xidmət obyektində monitorinqlər keçirilmiş, topdansatış müəssisələri və ticarət obyektlərində ümumi dəyəri 13603,79 manat olan istehlak müddəti ötmüş ərzaq və qeyri-ərzaq malları aşkar edilərək ticarət dövriyyəsindən çıxarılmışdır.

Aparılmış monitorinqlər zamanı ticarət obyektlərində aşkar edilmiş nöqsanlara görə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, dörd sahibkar barəsində inzibati cərimə, səkkiz sahibkar barəsində "Xəbərdarlıq" inzibati tənbeh növü tətbiq edilmişdir.

İstehlakçıların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də süni qiymət artımının və antiinhisar qanunvericiliyinin pozulması hallarının qarşısının alınmasıdır. Daxili bazarda süni qiymət artımına səbəb ola biləcək halların qarşısının alınması məqsədilə 480 adda yerli istehsal, 1527 adda idxal mənşəli əsas istehlak mallarının topdan və pərakəndə satış qiymətləri nəzarətdə saxlanılmışdır.

Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan dövlət nəzarətinin bir hissəsini də yerli istehsal və idxal məhsullarının orqanoleptik, fiziki-kimyəvi, mikrobioloji və toksikoloji göstəricilərinin yoxlanılmasıdır. Bu məqsədlə 251 halda idxal, 870 halda yerli istehsal mallarından nümunələr götürülərək onların "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin laboratoriyasında təhlili aparılmışdır. Keyfiyyət göstəriciləri normativ-texniki sənədlərin tələblərinə cavab verməyən məhsulların istehsalçısı və idxalçısı barədə qanunvericiliyə uyğun tədbirlər görülmüşdür.

Daxili bazarın və istehlakçıların hüquqlarının qorunmasında inzibati tədbirlərlə yanaşı, istehlakçıların və sahibkarların maarifləndirilməsi də böyük əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən müxtəlif konfranslar və seminarlar keçirilməsi diqqətdə saxlanılır, ticarət və ictimai iaşə obyektlərində çalışan xidmət personallarının təlimatlandırılması və digər bu kimi tədbirlər həyata keçirilir.

Nazirlik bundan sonra da istehlak bazarında çatışmazlıqların aradan qaldırılması üçün inzibati tədbirlərin görülməsi ilə yanaşı, təbliğat-təşviqat və maarifləndirmə işlərini də gücləndirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan məhsulları xarici bazarda*

# "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin ixrac potensialı artıb



***"Badamlı" mineral bulağı ötən əsrin ortalarında aşkar olunmuşdur. 1947-ci ildə kiçik müəssisə yaradılaraq ilk dəfə əl üsulu ilə cəmi 30-40 litr su istehsalına başlanılmışdır.***

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə müəssisənin fəaliyyəti genişləndirilmiş, Almaniya və Çexoslovakiya istehsalı olan yeni texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücü daha da artırılmışdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş verən hadisələr, iqtisadi tənəzzül bu müəssisənin də fəaliyyətinin dayanmasına səbəb olmuşdur. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf bütün sahələr kimi, sahibkarlıq fəaliyyətinin də genişləndirilməsinə böyük imkanlar açmışdır. Muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması "Badamlı" mineral suyunun da əvvəlki şöhrətini özünə qaytarmış, 2004-cü ildə özəlləşdirilən müəssisədə daha keyfiyyətli məhsul istehsalına başlanılmışdır. "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisəyə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni həyat vermişdir.

Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən və ümumi sahəsi 9590, istehsal sahəsi isə 3600 kvadratmetr olan yeni istehsal müəssisəsi 2009-cu ildə ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir.

Mineral suyun butulkalara doldurulması üçün istehsal sahəsində Fransanın "SİDEL" şirkətinin istehsalı olan avadanlıqlar quraşdırılmışdır. Müəssisənin sexlərində müxtəlifhəcmli plastik və şüşə butulkalarda olmaqla, 12 çeşiddə mineral su istehsal olunur.

Zavodda məhsulun keyfiyyətinə ciddi nəzarət olunur. Burada Almaniya istehsalı olan müasir avadanlıqlarla təmin edilmiş xüsusi laboratoriya qurulmuşdur. Laboratoriyada suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bunun nəticəsidir ki, "Badamlı" mineral suyu keçirilən beynəlxalq sərgilərdə yüksək qiymətləndirilir.





Məhsulun keyfiyyətinin yüksək olması müəssisəni alıcı problemi ilə üzləşdirmir. Zavodda tələbata uyğun olaraq 0,5, 1, 1,5 litrlik plastmas butulkalarda qazlı və qazsız, 0,3, 0,6 litrlik şüşə butulkalarda qazlı və qazsız, 5 və 19 litrlik plastmas taralarda qazsız su buraxılır. Ümumilikdə, cari ilin ötən dövründə 1 milyon 452 min 700 ədəd su istehsal edilmiş, 392 min 200 ədədi muxtar respublika ərazisində, 1 milyon 17 min ədədi Bakı şəhərində və ölkəmizin müxtəlif bölgələrində satışa çıxarılmışdır. "Badamlı" mineral süfrə suyunun muxtar respublika ərazisində satışı "Gəmiqaya Bərəkət Bazarlama" MMC, Bakı şəhərində və ölkəmizin digər regionlarında isə "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının Bakı Satış Mərkəzi vasitəsilə həyata keçirilir. İstehsal olunan məhsulun ticarət obyektlərinə vaxtında çatdırılması da diqqət mərkəzində saxlanılır. Həmçinin Avropa ölkələrində və digər xarici ölkələrdə bu əvəzsiz təbii sərvətimizin satışını təmin etmək üçün möhkəm baza yaradılmışdır.

"Gəmiqaya Mineral Sular" MMC-də bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sistemi və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə qurulmuşdur. "Badamlı" mineral suyunun xarici ölkələrə ixrac olunması cari ildə də diqqət mərkəzində saxlanılmış, bağlanmış müqaviləyə əsasən, 43 min 500 ədəd mineral suyun Rusiya Federasiyasına göndərilməsi təmin edilmişdir. Qeyd edək ki, "Gəmiqaya Mineral Sular" MMC-nin iqtisadi əlaqələri daha da genişləndirilmiş, cari ilin ötən dövründə istehsal edilən "Badamlı" mineral süfrə suyunun 27 faizi muxtar respublika ərazisində, 70 faizi Bakı şəhərində və müxtəlif regionlarda satışa çıxarılmış, 3 faizi isə Rusiya Federasiyasına ixrac olunmuşdur. Mineral suyun digər xarici ölkələrə ixrac olunması istiqamətində işlər davam etdirilir.

Onu da qeyd edək ki, bu qiymətli təbii sərvətimizin mineral sular ixracatçısı olan Rusiya bazarına çıxarılması biznes əlaqələrinin genişləndirilməsi ilə bağlıdırsa, digər tərəfdən "Badamlı" təbii mineral süfrə suyunun xarici bazarda özünəməxsus yer tutması və möhkəmlənməsi onun dünya standartlarına uyğun yüksəkkeyfiyyətli istehsalı və müalicəvi əhəmiyyəti ilə bağlıdır.

**Kərəm HƏSƏNOV**

## Ağbulaq İstirahət Mərkəzində gənclərin növbəti *“Yay məktəbi”* təşkil edilib



Ağbulaq İstirahət Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən növbəti “Yay məktəbi” təşkil edilib.

Naxçıvan Dövlət Universitetində və “Naxçıvan” Universitetində təhsil alan 50 fəal gəncin iştirak etdiyi “Yay məktəbi”nin ilk günündə Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla həyata keçirilən dövlət gənclər siyasəti və bu sahədə görülən ardıcıl tədbirlər barədə danışıb. Qeyd olunub ki, bu gün muxtar respublikamızda gənclərin asudə vaxtının səmərəli təşkili, intellektual inkişafının təmin edilməsi, onların gələcəyin əsl vətəndaşı kimi yetişdirilməsi üçün hər cür şərait yaradılıb. Yaradılan şəraitdən düzgün istifadənin vacibliyini vurğulayan Məmməd Babayev gənclərə xoş və mənalı istirahət arzulayıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov çıxış edərək gənclər üçün yay məktəblərinin təşkil olunmasının artıq bir ənənə halını aldığını bildirib. 2013-cü ildən başlayaraq hər il məkzdə “Yay məktəbi”nin təşkil edilməsi gənclərin asudə vaxtlarını səmərəli keçirmələrinə xidmət edir. Burada yaradılan şərait dövlətimizin gənclərə göstərdiyi yüksək diqqət və qayğının təzahürüdür.

Gənclər onlar üçün yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Onu da qeyd edək ki, “Yay məktəbi”ndə gənclər əvvəlcədən müəyyənləşdirilmiş günün nizam qaydasına uyğun olaraq hərəkət edəcəklər. Burada müxtəlif idman oyunları, müsabiqələr, intellektual yarışlar, seminarlar təşkil olunacaq və Azərbaycan filmləri nümayiş etdiriləcək. Azərbaycan filmlərinin nümayiş etdirilməsi və bu mövzuda müzakirələrin aparılması isə gənclərin tariximiz, milli dəyərlərimiz və adət-ənənələrimizlə tanış olması, onlarda vətənpərvərlik hissinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, növbəti yay məktəblərində isə Naxçıvan Müəllimlər İnstitutu, Tibb, Musiqi və Dövlət Texniki kolleclərinin tələbələri iştirak edəcəklər.

**Xəbərlər şöbəsi**

## Tibb bacılarının vəzifələri və əsas iş prinsiplərinə dair səyyar seminar-məşğələ

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, Şərur Rayon Mərkəzi Xəstəxanasında “Tibb bacılarının vəzifələri və əsas iş prinsipləri” mövzusunda səyyar seminar-məşğələ keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov tədbiri giriş sözü ilə açaraq dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında tibbi heyətin peşəkarlığının artırılmasının səhiyyə sistemində əsas vəzifələrdən biri kimi müəyyən edildiyini, bu vəzifələrin yerinə yetirilməsi üçün bütün imkanlardan istifadə olunacağını bildirmiş, profilaktik tədbirlərin məqsəd və əhəmiyyəti, təşkili, kütləvi profilaktikada orta tibb işçilərinin rolu, tibbi profilaktika işinin keyfiyyət göstəriciləri barədə məlumat vermişdir.

Sonra Naxçıvan Tibb Kollecinin müəllimlərindən Sahibə Quliyeva “Sahə tibb bacısının iş prinsipi və vəzifələri”, Nərmin Səfərova “Tibb bacılarının vəzifələri və peyvənd kabinəsinin iş prinsipləri”, Maral Həsənova “Travmalar, yanıqlar, donmalar zamanı ilk tibbi yardım” mövzularında məruzələr edərək bildirmişlər ki, əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca istiqamətlərindən olaraq daim dövlətin diqqət mərkəzindədir. Son illər muxtar respublikada səhiyyə sahəsində aparılan islahatlar nəticəsində əhalinin sağlamlığının qorunması istiqamətində bir sıra mühüm işlər görülüb, o cümlədən tibb müəssisələrinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb, yeni tibb müəssisələri tikilərək istifadəyə verilib. Bütün bunlarla bərabər, həmin müəssisələrin kadr təminatı da diqqət mərkəzində saxlanılır, həkimlərin peşə vərdişlərinin yüksəldilməsi üçün ardıcıl tədbirlər görülür.

İnsanların sağlamlığının qorunmasında profilaktik tədbirlər mühüm yer tutur. Tibbi profilaktika sağlamlığın qorunması məqsədilə əhalinin kompleks müayinəsi, xəstələrin hərtərəfli müalicəsinə nəzarət, xəstələnmələrin azaldılması, insanların əmək qabiliyyətinin qorunub saxlanmasına xidmət edən kompleks tədbirlər planıdır.

Şərur Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Aftandil Məmmədli belə tədbirlərin tibb işçilərinin peşə bacarığının yüksəldilməsində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayaraq rayonun səhiyyə işçiləri adından minnətdarlığını bildirmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 21 avqust 2015-ci ildə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın axırıncı satış qiyməti (manat) | Əmlakın (15 faiz) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|---|
| 1. | 0,06 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı 42,00 kv.m yaşayış, 40,80 kv.m köməkçi sahədən ibarət həyətyanı sahə | Naxçıvan şəhər Qaraçuq kəndi | 27.000 | 27.000 | – | 1.350 |
| 2. | 0,128 ha torpaq sahəsində yerləşən 2 mərtəbəli, 6 otaqlı 128,0 kv.m yaşayış, 10,0 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış binası | Kəngərli rayon Xok kəndi | 12.500 | 12.500 | – | 625 |
| 3. | 0,3014 ha torpaq sahəsində yerləşən 82,0 kv.m yaşayış, 76,0 kv.m köməkçi sahədən ibarət yaşayış binası | Kəngərli rayon Qabıllı kəndi | 12.000 | 12.000 | – | 600 |
| 4. | 0,1485 ha torpaq sahəsində tikilən, ümumi sahəsi 98,26 kv.m olan fərdi yaşayış evi | Şərur rayon Xələc kəndi | 15.500 | – | 1317,5 | 775 |
| 5. | 0,4323 ha torpaq sahəsində tikilən, ümumi sahəsi 236,3 kv.m olan fərdi yaşayış evi | Şərur rayon Xələc kəndi | 20.000 | – | 17.000 | 1000 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 % məbləğində beh “Kapital Bank” Naxçıvan Muxtar Respublikası Baş İdarəsindəki AZ 87 AİİB 45090249443100007500 nömrəli hesabına və “Bank of Azerbaijan” ASC 12 saylı Naxçıvan filialında olan AZ 98 AZEJ 00800450190909001 nömrəli hesabına 17 avqust 2015-ci il tarixədək ödənməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki № AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti, 6) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *kommersiya banklarına ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 21 avqust 2015-ci il tarixdə saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

**Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.**
**Əlaqə telefonu: 545-01-38**

## Basketbolun inkişafı diqqət mərkəzindədir

***Muxtar respublikamızda həyata keçirilən idman siyasəti öz bəhrələrini verir. İdman federasiyaları tək Naxçıvanda deyil, eyni zamanda ölkəmizdə və ölkədən kənarda qazandıqları uğurlarla bu işin hədər getmədiyini nümayiş etdirməkdədir.***



Təbii ki, burda əsas amil idmanın müxtəlif növlərinin inkişafına yaradılan şəraitdir. Onu da qeyd edək ki, idmanın individual sahələri ilə yanaşı, komanda oyunlarına yeniyetmə və gənclərin axını kollektiv idman növlərinin daha geniş yayılmasına imkan yaradıb. Belə idman növlərindən biri də basketboldur. Muxtar respublikada bu idmanın inkişafı, kütləviləşməsi və gənclər arasında yayılması üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

Məlumat üçün bildirək ki, basketbol idman növü 1891-ci ildə Amerika Birləşmiş Ştatlarında yaranmışdır.

Azərbaycanda bu idman növünün inkişafı ötən əsrin 30-cu illərinə təsadüf etsə də, geniş vüsət alması ölkə Prezidenti cənab İlham Əliyevin adı ilə bağlıdır. Dövlət başçısı ölkəmizdə digər idman növləri ilə yanaşı, basketbolun inkişafını da daim diqqətdə saxlayır.

Bu idman növünün inkişafı muxtar respublikamızı da əhatə edib. Yaradılan federasiya qısa zaman kəsiyində gördüyü işlərlə basketbolun inkişafına töhfəsini verib. Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının sədr müavini Ənvər Məmmədov söhbət zamanı ilin ötən dövründə görülən işlər barədə qısa məlumat verdi: “Geridə qoyduğumuz müddətdə federasiya Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi ilə birgə bir çox idman tədbirləri həyata keçirib. Gəncləri bu sahəyə cəlb etmək üçün komandalar arasında mütəmadi olaraq yoldaşlıq görüşləri təşkil olunub. Təbii ki, yoldaşlıq görüşlərini keçirməkdə məqsədimiz həm bu idman növünün inkişafını sürətləndirmək, həm də istedadlı gəncləri üzə çıxarmaqdır. İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş basketbol üzrə yeniyetmələr arasında Naxçıvan Muxtar Respublika turniri də yaddaqalan olub. 2015-ci ilin ilk yarısında federasiya şəhər və rayonlarda məşqçilərin fəaliyyəti ilə mütəmadi maraqlanıb, idmançıların tələb və təkliflərini dinləyib, qruplar idman ləvazimatları ilə təmin ediliblər. Hazırda fəaliyyət göstərən bu qruplarda 150-dən artıq idmançı basketbolla məşğul olur”.

Federasiyanın sədr müavini 2015-ci ilin ikinci yarısında görüləcək işlər barədə də məlumat verdi: “Fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədən sonra federasiyanın qarşısına qoyulan vəzifələr və onların yerinə yetirilməsi üçün cari ilin ikinci yarısında nazirliklə birgə bir çox tədbirlərin həyata keçirilməsinə başlamışıq. Komandalar arasında yoldaşlıq görüşləri təşkil edilib, istedadlı gənclər yığmanın heyətinə cəlb olunub. Federasiya Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə birgə cari ildən başlayaraq ilk dəfə basketbol üzrə klublar arasında Naxçıvan Muxtar Respublika çempionatına start verib. Artıq çempionatın ilk dövrəsi başa çatıb. İkinci dövrəyə isə sentyabrın 27-də start veriləcək ki, bu da əsasnaməyə uyğun olaraq dekabrın 27-də yekunlaşacaqdır. Bizim məqsədimiz muxtar respublikada bu idman növünün inkişafı, ən yaxşı basketbolçuları üzə çıxarmaq və basketbol üzrə muxtar respublika yığmasını müəyyənləşdirməkdir”.

**Ceyhun MƏMMƏDOV**

## *Tender elanı*

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Culfa rayonunun Qızılca icmasının tender komissiyası icma qrupunun hazırladığı “Yolun təmiri” adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki baza və insan resursları barədə məlumat*
* *Son 3 ildə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması.*

Qeyd olunmuş sənədlər toplusunu 5 avqust 2015-ci il saat $18^{00}$-ə kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Culfa rayonu, Qızılca kəndi, tender komissiyası icma qrupunun sədri: Namiq Nəzərov***
***Əlaqə telefonu: (050) 255-17-25***

### *İtmişdir*

Kəngərli rayonunun Qıvraq qəsəbə sakini Hüseynquliyev Yusif Hüseynqulu oğlunun adına olan JN-52[AB] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Yuxarı Daşarx kəndində yaşamış Süleymanov Hüseyn İbrahim oğlunun adına verilmiş JN-219[A] inventar nömrəli, 10213038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Qafarlı Qulu Fəxrəddin oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor əvəzi: MUXTAR MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 574